# KİMYADAN EKSPERİMENT XARAKTERLİ PRAKTİK MƏŞĞƏLƏ DƏRSLƏRİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ

**Ə.N. Qurbanov, S.F. Sərxanlı**

*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

Azərbaycanda elmin, təhsilin sürətlə inkişaf etməsi, müasirləşməsi, inteqrativliyi şəraitində gənclərdə elmi araşdırmalara həvəsin əsaslı dərəcədə artması təqdirəlayiqdir. Artıq bizə məlumdur ki, elm axtarışsız, təcrübəsiz inkişaf edə bilməz. Elmlə istehsalat arasında qarşılıqlı əlaqə olmadan tərəqqi etmək mümkün deyil. Elmi tərəqqi yalnız tətbiq prosesində, praktikada sübuta yetirildikdə inandırıcı olur.

Kimya fənninin tədrisi prosesində şagirdlərə dərin biliklər verilir, onların politexnik bilikləri genişləndirilir. Kimya fənni proqramına daxil edilmiş şagird eksperimenti şagirdlərdə əməli vərdişlərin möhkəmləndirilməsində xüsusi rol oynayır. Düzgün yerinə yetirilmiş əməli təcrübələr şagirdlərin qazandığı nəzəri bilikləri daha da təkmilləşdirir, şagirdlərdə müşahidə etmək, nəticə çıxarmaq və bilikləri tətbiq etməyi bacarmaq vərdişlərini inkişaf etdirir. Eyni zamanda bir sıra sadə qurğularla tanış olan şagirdlərdə istehsalatın hər hansı sahəsi haqqında təsəvvür formalaşır və kimyanın həyatla qarşılıqlı əlaqədə, inteqrativ şəkildə mənimsənməsinə nail olunur.

Kimya eksperimenti içərisində praktik məşğələlər xüsusi əhəmiyyətə malikdir. Praktik işlər vasitəsilə şagirdlər qazanılmış nəzəri bilikləri şüurlu surətdə tətbiq edərək praktik xarakter daşıyan tapşırıqları yerinə yetirirlər və həmçinin avadanlıq və reaktivləri tanıyırlar. Praktiki məşğələ dərslərində müəllim şagirdlərə nəzəri bilikləri praktikaya - kimya eksperimentinə tətbiq etməyi öyrətmək kimi didaktik vəzifəni icra edir və beləliklə onların eksperimental bacarıq və vərdişlərini təkmilləşdirir. Praltik məşğələnin səmərəliliyi onun təşkilində istifadə olunan üsul və ptiyomların düzgünlüyündən də asılıdır. Düzgün seçilmiş üsullar şagirdlərin fikri fəallıqlarının inkişaf etdirilməsinə, əldə etdikləri nəticəni müzakirə edərək beyin fırtınasının yaranmasına xidmət edir.

Praktik məşğələ əvvəlcədən öyrənilmiş təlim materialı üzrə keçirilən, biliklərin möhkəmləndirilməsinə doğru yönəldilmiş, xüsusi tərtib olunmuş təlimata və ya dərslikdəki göstərişlərə əsasən şagirdlər tərəfindən yerinə yetirilən kimya eksperimentidir. Praktik məşğələnin yuxarı siniflərdə tətbiqi daha məqsədəuyğundur. Fənn kurikulumlarında praktik məşğələlərə xüsusi vaxt ayrılır, yerinə yetirilməsi bir dərs saatı müddəti ərzində mütləq hesab olunur.

Şagirdlərin politexnik hazırlığı ilə əlaqədar olaraq praktiki məşğələlər daha böyük əhəmiyyətə malikdir. Elə buna görə də mövcud kimya proqramında hər

sinifdə onların aparılmasına xüsusi vaxt sərf olunur. Praktik məşğələ müəllimin seçdiyi üsul və priyomlardan asılı olaraq həm kollektiv (frontal), həm də 4-5 nəfərlik qruplar şəklində həyata keçirilə bilər. Praktik məşğələləri yerinə yetirmədən öncə müəllim şagirdlərin laboratoriyada işləmək qaydalarını bildiyindən əmin olmalıdır, həmçinin şagirdlər aparacaqları işin təlimat materialı üzrə ardıcıllığını düzgün bilməli və ona əməl etməlidir.

Praktik məşğələlər iki formada həyata keçirilir: təlimatla aparılan təcrübələr və eksperimental məsələlərin həlli. Təlimat şagirdlərin fəaliyyətinin istiqamətləndiricisidir, ya kitabda verilir, yaxud kimya kabinetində didaktik sxem şəklində hər bir stolun üzərinə qoyulmalıdır. Praktik məşğələnin digər növü olan eksperimental məsələnin həlli isə şagirdlərdə təkcə əqli təfəkkür əməlliyyatı aparmağı yox, həmçinin nəzəriyyə və qanunları əsasında problemli situasiya yaratmağı tələb edir. Eksperimental məsələnin həllinin funksiyası müstəqil işin kompleks bacarıqlarının formalaşdırılmasında, diqqət və müşahidəçiliyin təkmilləşdirilməsində özünü göstərir.

IX sinif üzrə “Azot yarımqrupu elementləri” bəhsini keçdikdən sonra kimya fənni proqramında göstərilmiş saat miqdarına müvafiq olaraq “Qeyri-metalların və onların birləşmələrinin xassələri” mövzusunda aşağıda göstərilmiş praktik işi yerinə yetirmək lazımdır.

Praktik işə keçməmişdən qabaq müəllim şagirdlərlə aşağıdakı şəkildə qısa sorğu keçirərək onları istiqamətləndirə bilər:

1. Ammonyak hansı fiziki xassələrə malikdir?
2. Məhlulda sulfat turşusunun olduğunu necə müəyyən etmək olar?
3. Xlorid turşusunun hansı fiziki xassələrini bilirsiniz?
4. Məhlulda halogen ionlarının olduğunu necə müəyyən edərsiniz?

Təcrübə 1.

Çini həvəngə sönmüş əhəng və ammonium xlorid töküb qarışdırın və qarışığı quru sınaq şüşəsinə tökərək ağzına şüşə boru keçirilmiş tıxac taxın. Sınaq şüşəsini ştativə bərkidib şüşə borunu içərisində həcminin 1/3-i qədər su olan ikinci sınaq ikinci sınaq şüəsinə daxil edin. İçərisində qarışıq olan sınaq şüşəsini 2-3 dəqiqə qızdırın. Şüşə borunu sudan çıxarın və oraya 1-2 damcı fenolftalein məhlulu əlavə edin.

Təcrübə 2.

Kimyəvi reaksiyalar vasitəsilə sübut edin ki, ağzıbağlı qablarda sizə verilən maddələr məhz:

a) ammonium-xlorid; b) ammonium-nitrat; c) naşatır spirtidir.

Yerinə yetirdiyiniz reaksiyaların molyar və ion tənliklərini qeyd edin.

Təcrübə 3.

Qısa ion tənlikləri a və b-dəki kimi olan reaksiyaları həyata keçirin. Yerinə yetirdiyiniz reaksiyaların molyar və ion tənliklərini tərtib edin.

a) $\overset{+}{H} + \overset{-}{OH} = H_2O$ ; b) $\overset{+}{Ag} + \overset{-}{J} = AgJ$ ;

Təcrübə 4.

Hər birində məhlul olan üç sınaq şüşəsi verilmişdir. Sınaq şüşəsinin hansında xlorid turşusu, hansında sulfat turşusu və hansında natrium-hidroksid olduğunu müəyyən edin. Müvafiq reaksiyaların molekulyar və ion tənliklərini yazın.

Təcrübələr yerinə yetirildikdən sonra hər bir şagird dəftərində işin gedişini, müşahidə və nəticəni qeyd etməli, lazım olarsa işin aparıldığı cihazın quruluşunu da təsvir edə bilər. Reaksiyaların tənlikləri isə mütləq qeyd olunmalıdır.

Praktik məşğələ zamanı şagirdlər müstəqil fəaliyyət göstərirlər, müəllim təcrübəni apararkən onlara nəzarət edir, lazımi hallarda istiqamət verir.

Təcrübələrdən alınan nəticələri aşağıdakı suallara əsasən müzakirə etmək olar:

Təcrübə 1

- Sınaq şüşəsindəki qarışığı alovla qızdırdıqda nə müşahidə etdiniz?
- Sonda sınaq şüşəsinə 1-2 damcı fenolftalein məhlulu əlavə etdikdə nə baş verir? Bunun səbəbi nədir?

Təcrübə 2

- Ammonium duzlarının təyinində hanaı maddələrdən istifadə olunur və nə üçün?
- Nə üçün ammonyak məhluluna qatı xlorid turşusunun əlavə edilməsi reaksiyasından onun təyinində istifadə oluna bilər?

Təcrübə 3

- Sarı rəngli AgJ çöküntüsü əldə etmək üçün hansı maddələrin götürülməsi daha məqsədəuyğun olar?

Təcrübə 4

- Lakmus kağızı turşulara və qələvilərə necə təsir edir?
- Nə üçün $Ba(OH)_2$ sulfat turşusunun təyinində istifadə oluna bilər?

Baş verən reaksiyaların tənlikləri aşağıdakı kimi qeyd olunmalıdır:

Təcrübə 1:

$$2NH_4Cl + Ca(OH)_2 \longrightarrow CaCl_2 + 2NH_3 + 2H_2O$$

Təcrübə 2:

$$\text{a) } NH_4Cl + NaOH \longrightarrow NaCl + NH_4OH \begin{cases} \nearrow NH_3\uparrow \\ \searrow H_2O \end{cases}$$

$$\overset{+}{NH_4} + \overset{-}{Cl} + \overset{+}{Na} + \overset{-}{OH} \longrightarrow \overset{+}{Na} + \overset{-}{Cl} + NH_3\uparrow + H_2O$$

$$\overset{+}{NH_4} + \overset{-}{OH} \longrightarrow NH_3\uparrow + H_2O$$

b) $NH_4NO_3 + NaOH \longrightarrow NaNO_3 + NH_4OH \begin{cases} \nearrow NH_3\uparrow \\ \searrow H_2O \end{cases}$

$\overset{+}{NH_4} + \overset{-}{NO_3} + \overset{+}{Na} + \overset{-}{OH} \longrightarrow \overset{+}{Na} + \overset{-}{NO_3} + NH_3\uparrow + H_2O$

$\overset{+}{NH_4} + \overset{-}{OH} \longrightarrow NH_3\uparrow + H_2O$

c) $NH_4OH + HCl \rightarrow \underset{\text{ağ rəngli tüstü}}{NH_4Cl} + H_2O$

Təcrübə 3:

a) $Ca(OH)_2 + 2HCl \longrightarrow CaCl_2 + 2H_2O$

$\overset{+2}{Ca} + 2\overset{-}{OH} + 2\overset{+}{H} + 2\overset{-}{Cl} \longrightarrow \overset{+2}{Ca} + 2\overset{-}{Cl} + 2H_2O$

$2\overset{-}{OH} + 2\overset{+}{H} \longrightarrow 2H_2O$

b) $AgNO_3 + NaJ \longrightarrow AgJ\downarrow + NaNO_3$

$\overset{+}{Ag} + \overset{-}{NO_3} + \overset{+}{Na} + \overset{-}{J} \longrightarrow AgJ\downarrow + \overset{+}{Na} + \overset{-}{NO_3}$

$\overset{+}{Ag} + \overset{-}{J} \longrightarrow AgJ\downarrow$ sari rengli

Təcrübə 4:

1) $H_2SO_4 + Ba(OH)_2 \longrightarrow BaSO_4\downarrow + 2H_2O$

$2\overset{+}{H} + \overset{-2}{SO_4} + \overset{+2}{Ba} + 2\overset{-}{OH} \longrightarrow BaSO_4\downarrow + 2H_2O$

2) $AgNO_3 + HCl \longrightarrow AgCl\downarrow + HNO_3$

$\overset{+}{Ag} + \overset{-}{NO_3} + \overset{+}{H} + \overset{-}{Cl} \longrightarrow AgCl\downarrow + \overset{+}{H} + \overset{-}{NO_3}$

$\overset{+}{Ag} + \overset{-}{Cl} \longrightarrow AgCl\downarrow$

3) $NH_4Cl + NaOH \longrightarrow NaCl + NH_4OH \begin{cases} \nearrow NH_3\uparrow \\ \searrow H_2O \end{cases}$

$\overset{+}{NH_4} + \overset{-}{Cl} + \overset{+}{Na} + \overset{-}{OH} \longrightarrow \overset{+}{Na} + \overset{-}{Cl} + NH_3\uparrow + H_2O$

$\overset{+}{NH_4} + \overset{-}{OH} \longrightarrow NH_3\uparrow + H_2O$

Praktik məşğələ başa çatdıqdan sonra şagirdlər öz müşahidə və nəticələrini müstəqil olaraq qeyd edir və sonra yerinə yetirdiyi işlər barədə hesabat yazırlar. Yavaş işləməyə adət etmiş şagirdlər də bu məşğələdə öz işini axıra qədər çatdıra bilir, birinci dəfə nəticə verməyən təcrübəni təkrar etməyə vaxt tapırlar. Bu məşğələ növünün ən faydalı cəhəti iş zamanı şagirdlərin müstəqil fəaliyyət göstərib tədqiqatçılıq bacarığı və vərdişlərinə yiyələnməsidir. Alınan nəticələr müzakirə olunduqdan sonra şagirdlərin fəaliyyəti müəllim tərəfindən qiymətləndirilir.

Qeyd etmişdik ki, praktik məşğələnin bir növü eksperimental məsələlərin həllidir. Eksperimental məsələlər özü də iki qrupa ayrılır. Birinci qrupa sırf təcrübə ilə əlaqədar olan eksperimental məsələlər, ikinci qrupa isə həm təcrübə edilməsi, həm də hesablama aparılması lazım gələn məsələlər daxildir. İkinci qrupa daxil olan məsələləri eksperimental-hesablama məsələləri də adlandırırlar. Sırf təcrübə ilə əlaqədar olan eksperimental məsələlər, əsasən, dərsdə keçirilmiş materialın möhkəmləndirilməsinə, biliklərin təkmilləşdirilməsinə və tətbiqinə xidmət edir. Hazırkı kimya proqramında praktik məşğələnin bir növü kimi bu cür məsələlərin həllinə geniş yer verilir. Yuxarıda göstərdiyimiz eksperiment nümunəsində təcrübə 2 və təcrübə 4 belə məsələlərə daxildir. Eksperimental məsələlərə daha bir misal:

Barium-xlorid, natrium-bromid və kalium-yodid duzlarına gümüş-nitratla təsir edib, alınan məhsulların bir-birindən nə ilə fərqləndiyini müəyyənləşdirin və müvafiq reaksiyaların tənliklərini yazın.

Şagirdlər əvvəlcə eksperimenti yerinə yetirərək hər üç halda suda həll olmayan çöküntü (gümüş-xlorid, gümüş-bromid və gümüş-yodid) alındığını və onların bir-birindən rəngləri ilə fərqləndiyini (müvafiq olaraq ağ, sarımtıl, tünd sarı) müşahidə etməli, sonra isə reaksiyaların tənliklərini yazıb, kimyəvi proseslərin axıra qədər getdiyini (çöküntü əmələ gəlməsi şərtinə görə) qeyd etməlidirlər.

Eksperimental-hesablama məsələləri - adından da məlum olduğu kimi, belə təcrübələri yerinə yetirilmək üçün həm təcrübi iş yerinə yetirilir, həm də hesablama əməliyyatı aparılır. Burada iki hal ola bilər: 1) əvvəlcə təcrübə edilib, sonra riyazi hesablama aparılır; 2) əksinə olur - əvvəlcə hesablama aparılır, sonra isə təcrübə edilir. Belə məsələlərə misal olaraq aşağıdakı təcrübələri göstərmək olar:

**Misal 1.** İki sınaq şüşəsinə 6ml 1M sulfat turşusu məhlulu tökün. Digər iki sınaq şüşəsinin birincisinə 4 ml natrium-tiosulfat və 2ml su, ikincisinə isə 3ml natrium-tiosulfat və 3 ml su tökün. Məhlulların həcmini dəqiq ölçün və cüt-cüt bir-birinə qarışdırın. Saniyəölçəni işə salıb məhlulların qarışdırıldığı andan bulantının əmələ gəlməsinə sərf olunan vaxtı qeyd edin.

Məsələnin şərtindən aydındır ki, iki sınaq şüşəsində ümumi həcm 12 ml-dir. Onu həll etmək üçün şagird reaksiyanın tənliyini yazaraq bulantının əmələ gəlməsinə sərf olunan zamanı qeyd edib, reaksiyanın sürətini isə $v=1/\tau$ düsturu ilə

hesablamalıdır.

**Misal 2.** 970 q sink sulfiddən 490 q sulfat turşusu alınmışdırsa, bu nəzəri cəhətdən mümkün olan çıxımın neçə faizini təşkil edir?

Burada əvvəlcə təcrübə aparılır, sonra isə riyazi hesablama tətbiq edilir. Kimyadan sinifdə, eləcə də (evdə) məsələ həll etdirmək üçün müəllim özü məsələ həll etdirməyin ümumi şərtlərini və üsullarını yaxşı bilməli və onu şagirdlərindən də tələb etməlidir.

Praktik məşğələ şagirdləri praktik fəaliyyətə hazırlamaq baxımından kimya tədrisində tətbiq olunan təlim üsullarından ən əsaslısı hesab olunur. Kimya eksperimental elmdir, onu yalnız praktikada dərk etmək mümkündür. Kimya eksperimentinin o cümlədən, praktik məşğələnin üstün cəhətləri:

- Müəllim, laborant və şagirdlərin öz işlərinə olan məsuliyyəti artır, sinfə nəzarət asanlaşır;
- Müəllimlər arasında fikir mübadiləsi baş verir, onların peşəkarlığı yüksəlir;
- Eyni zamanda, kiçik ölçülü kimyəvi qablardan istifadə şagirdlərə tonlarla şüşəyə, dolayısı ilə xammala qənaət etməyi öyrədir;
- Qısa müddət ərzində təhsilalanların fənnə olan marağı güclənir, yaradıcı təfəkkürləri inkişaf edir.

Kimyanın nəzəri konsepsiyasının hər biri məktəb kimya kursunun əsasını təşkil edir. Problem xarakterli eksperimentin təşkili şagirdlərin nəzəri hazırlığını yüksəldir və yaradıcılıq qabiliyyətini artırır. Təhsil ocaqlarımızda bu cür əyaniliyin yüksək səviyyədə təşkili təlim nəticələrinin reallaşmasına, sonda isə şagirdin gələcək gələcək həyatında səmərəli fəaliyyət göstərməsinə imkan verən bilik, bacarıq və vərdişlərin formalaşmasına gətirib çıxaracaqdır.

## İstifadə edilmiş ədəbiyyat:

1. Ю.В. Сурин, Методика проведнияпроьдемных опытов по химия. Развивающий эксперимент. М:, Школа-Прес, 1998

2. R.Y. Əliyev, Ə.T.Əzizov. Kimya təliminin prinsipləri, üsulları və priyomları. Bakı,2002,247 s

3. R.Əliyev, Ə.Əzizov. “Kimyanın tədrisi metodikası” (Ümumi məsələlər). Ali məktəblər üçün dərslik, Bakı Universiteti nəşri.2006

4. R.Babayev. VII-VIII siniflərdə kimyadan laboratoriya işlərinin təşkili və keçirilməsi. Bakı-1976

5. Г.С. Качалова, из обучения учащихся решению экспериментальных задач. Хим. В Шк., 1990, №3, с.42-43

*А.Н. Гурбанов, С.Ф. Сарханлы*

**Организация и проведение практической подготовки экспериментального характера химии**

**РЕЗЮМЕ**

Связь теории с практикой является одним из ключевых принципов развития. Теоретические знания введенные в новые программы играют решающую роль в глубоком и сознательном обучении школьников, надлежащем и последовательном преподовании самостоятельных работ, включая лабораторные и практические упражнения. Цель статьи закрепление знаний школьников, полученных по химии на практических занятиях экспериментального характера; развитие способности применять эти знания в решении в экспериментальных задач; подчеркнуть особую роль в прививании навыков и привычек необходимых для практической жизни школьников.

*E.N. Gurbanov, S.F. Sarkhanli*

**Organizing and conducting practical training of chemistry experimental character**

**SUMMARY**

Relating theory with experiment is the main principle of development. There is a vital importance in teaching students the theoretical knowledge that's been included in new programme deeply, teaching independent exercises as well as experimental laboratory practices correctly and respectively. The aim of article is to emphasize these factors about experimental exercises whiel, they strengthen the earned knowledge, from chemistry, improve the implementation of those knowledge, to the problem solution, and vaccinate the crucial skills and abilities to students whiel, are vital.

**Açar sözlər:** eksperiment, praktik məşğələ, nəzəriyyə, təcrübə, laboratoriya, praktika, məsələ, sınaq şüşəsi, məhlul, nəticə, lakmus kağızı, hesabat

**Ключевые слова:** эксперимент, практическое обучение, теория, опыт, лаборатория, практика, задача, пробная бутылка, решение, результат, лаковая бумага, счет

**Key words:** experiment, practical training, theory, experience, laboratory, practice, task, test bottle, solution, result, lacquer paper, report.